# Azərbaycan Respublikasının Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü Komissiyası

31 dekabr 2005-ci il tarixinə bitən il üzrə
**Müstəqil Mühasiblərin Rəyi**

## AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASI

### MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ | 1 |
| ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ BƏYANNAMƏSİ | 5 |
| ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN VƏ TƏRƏF OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI | 6 |
| ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI | 7 |

Deloitte.

Deloitte & Touche MMC
4-cü mərtəbə
Ləndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: + 994 (0) 12 498 2970
Faks: + 994 (0) 12 498 9805
www.deloitte.az

## MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ

Azərbaycan Respublikasının Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü ("MHŞT") Komissiyasına:

Biz, 1 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasının MHŞT Komissiyasının (bundan sonra "Komissiya") Bəyannaməsinin yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2005-ci il tarixinə bitən il ərzində Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən (bundan sonra "Şirkətlər") aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT Komissiyası, 2 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasında Mineral Ehtiyatların Hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və 3 saylı Əlavədə göstərilən qeyri-hökumət təşkilatları arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim məsuliyyətimiz, apardığımız yoxlamaya əsaslanaraq bəyannaməyə dair rəy bildirməkdən ibarətdir.

Növbəti paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamamızı "Əminlik Yoxlamaları Üzrə Beynəlxalq Standarta" uyğun olaraq həyata keçirdik və müvafiq olaraq Azərbaycan Respublikasının MHŞT Komissiyasının bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və müəyyən hallarda zəruri hesab etdiyimiz bu növ digər prosedurları yerinə yetirdik. Hesab edirik ki, apardığımız yoxlama nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Komissiyanın Bəyannaməsini yoxlamaq üçün əldə etdiyimiz məlumatlar Anlaşma Memorandumuna tərəf olan Şirkətlərin təqdim etdiyi yazılı məlumatlardan və Komissiya vasitəsilə Hökumət tərəfindən alınmış bütün ödənişlərə/daxilolmalara dair təfsilatlı məlumatlardan ibarət idi. Yoxlamamız hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların və Şirkətlər tərəfindən aparılan bütün ödənişlərin/daxilolmaların yoxlanılmasını əhatə etmirdi. Əgər Şirkətlər tərəfindən ödənişlər/daxilolmalar həyata keçirilibsə, lakin həm Hökumətin həm də Şirkətlərin təqdim etdiyi sənədlərdə bu öz əksini tapmayıbsa, bu halda bizim işimiz onları aşkar etmək üçün kifayət olmazdı.

**İcra olunmuş işlərin icmalı**

Azərbaycan Respublikasının MHŞT Komissiyasının Bəyannaməsini (Əlavə 1) yoxlamaq üçün, biz, 31 dekabr 2005-ci il tarixinə bitən il ərzində Hökumət tərəfindən qəbul edilmiş ödənişlər/daxilolmalar cədvəlini (bundan sonra "Hökumətin cədvəli") 2 saylı Əlavədə göstərilən (AM-ə tərəf olan) Şirkətlərin hazırladığı cədvəllər ilə ("Şirkətlərin cədvəli") müqayisə etdik. Yuxarıda qeyd olunan cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək məqsədilə şəraitdən asılı olaraq zəruri hesab edilən prosedurları həyata keçirtdik. Əldə etdiyimiz nəticələr aşağıda təqdim olunmuşdur.

Deloitte.

**Mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin hasilatındakı dövlət payı**

***Xam neft***

| | |
|---|---|
| Hökumətin cədvəli | 14.3 milyon barel |
| Şirkətlərin cədvəli | 13.1 milyon barel |

Şirkətlərin cədvəlinə daxil olmayan 1.4 milyon barel xam neft AM-ə tərəf olmayan mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkət tərəfindən Hökumətə ötürülmüş neftin həcmini əks etdirir. Bu neft yatağında əməliyyat şirkəti olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ("ABƏŞ") ("BP") təsdiqini almaqla biz Hökumətə ayrılan xam neftin ümumi həcmini təsdiq etdik.

0.2 milyon barel xam neft Şirkətlərin cədvəlinə səhvən daxil edilmiş və hasilat sahəsində çalışan iki xarici şirkət tərəfindən ARDNŞ-a ödəniləcək mənfəət nefti və kommersiya şərtləri əsasında ARDNŞ-a satılmış yerli bazar nefti kimi hesabat olunmuşdur. Biz bu həcmi bu iki xarici hasilat şirkəti tərəfindən təqdim olunmuş əlavə təsdiqedici məktublar vasitəsilə təsdiq etdik.

***Qaz***

| | |
|---|---|
| Hökumətin cədvəli | 1,919,709 min kub metr |
| Şirkətlərin cədvəli | 1,779,652 min kub metr |

Hökumətin cədvəlinə daxil edilmiş 109,179 min kub metr həcmində qaz AM-ə tərəf olan və hasilat sahəsində fəaliyyət göstərən bir şirkət tərəfindən alınmış qaz üçün müxtəlif ölçü vahidlərdən istifadə edilməsi ilə əlaqədardır. Biz bu fərqi ARDNŞ-dan əlavə olaraq alınmış məktub və izahat vasitəsilə təsdiq etdik.

Şirkətlərin cədvəlinə AM-ə tərəf olan və hasilat sahəsində fəaliyyət göstərən bir şirkət tərəfindən Hökumətə ötürülmüş 21,371 min kub metr həcmində qaz daxil deyildir. Şirkət həmin qazın AM-in şərtlərinə əsasən hesabat edilməsi tələbindən xəbərsiz olduğundan hesabat etməmişdir. Biz bu fərqi bu xarici hasilat şirkəti tərəfindən təqdim olunmuş əlavə təsdiqedici məktub vasitəsilə təsdiq etdik.

Şirkətlərin cədvəlinə AM-ə tərəf olmayan bir hasilat şirkəti tərəfindən Hökumətə ötürülmüş 3,077 min kub metr qaz daxil deyildir. Biz bu fərqi bu xarici hasilat şirkəti tərəfindən təqdim olunmuş əlavə təsdiqedici məktub vasitəsilə təsdiq etdik.

Hökumətin cədvəlinə AM-ə tərəf olan bir yerli hasilat şirkətinə aid olan 6,430 min kub metr qaz daxildir. Aşağıda "mineral ehtiyatların hasilatı sənayesində çalışan yerli şirkətlərin hasilatındakı dövlət payı"na baxın. Biz bu fərqi bu yerli hasilat şirkəti tərəfindən təqdim olunmuş əlavə təsdiqedici məktub vasitəsilə təsdiq etdik.

**Hökumətə mineral ehtiyatların hasilatı sahəsində çalışan xarici şirkətlərdən digər daxilolmalar**

***Nəqletmə rüsumları***

| | |
|---|---|
| Hökumətin cədvəli | 16.5 milyon ABŞ dolları |
| Şirkətlərin cədvəli | 12.9 milton ABŞ dolları |

Şimal xətti ilə bağlı 0.2 milyon ABŞ dolları məbləğində nəqletmə rüsumları Hökumətin cədvəlinə daxil edilməmiş, lakin Şirkətlər tərəfindən hesabat edilmişdir. Biz ABƏŞ-dən təsdiqedici məlumat almaqla bu məbləği təsdiq etdik. Təqdim olunmuş bu məlumatdan belə qənaətə gəldik ki, bu məbləğ ARDNŞ-a kommersiya fəaliyyətinin bir hissəsi kimi ödənildiyindən və AM-in şərtlərinə əsasən hesabat edilmədiyindən Hökumətin cədvəlinə daxil edilməmişdir.

Hökumətin cədvəlinə daxil edilmiş 1.3 milyon ABŞ dolları Şirkətlər tərəfindən 2004-cü ildə Hökumətə edilmiş ödənişləri əks etdirir. Nəticələr AM-ın şərtlərinə müvafiq olaraq kassa metodu əsasında hazırlandığından Hökumət bu məbləği cari dövrdə göstərmiş və bu, 31 dekabr 2004-cü il tarixinə vaxt fərqini əks etdirir.

Hökumətin cədvəlinə daxil edilmiş 2.7 milyon ABŞ dolları AM-ə tərəf olmayan iki şirkət tərəfindən ödənilmiş nəqletmə rüsumlarıdır. Biz ABƏŞ-dən təsdiqləmə almaqla, Hökumətə edilmiş ümumi ödəniş məbləğini təsdiq etdik.

Şirkətlərin cədvəlinə 0.2 milyon ABŞ dolları məbləğində nəqletmə rüsumları daxildir ki, bu da yuvarlaqlaşdırma fərqi kimi izah olunur. Bu fərq Şirkətlərin bizə təqdim etdikləri hesabatlarda yuvarlaqlaşdırılmış rəqəmlərin göstərilməsi səbəbindən yaranır.

***Müqavilənin şərtlərinin yerinə yetirilməməsi ilə bağlı kompensasiya***

MHŞT Komissiyasının bizə ilkin olaraq təqdim etdiyi Hökumətin cədvəlində Hökumət AM-ə tərəf olan iki şirkət tərəfindən ödənilmiş 50 milyon ABŞ dolları məbləğini göstərmiş olduğu halda, MHŞT Komissiyası bu məbləği nəzərə almadan Hökumətin ümumi cədvəlini səhv şəkildə hazırlamışdır. MHŞT Komissiyası müəyyənləşdirdi ki, Hökumətin ümumi cədvəlini hazırlayarkən səhvə yol vermiş və Hökumətin təqdim etmiş olduğu məlumatı MHŞT Komissiyası əks etdirməmişdir. MHŞT Komissiyası bu fərqi aradan qaldırmaqla düzəliş edilmiş Hökumətin cədvəlini əks etdirən yeni hesabat təqdim etmişdir.

***İmzalanma bonusları və digər bonuslar***

| | |
|---|---|
| Hökumətin cədvəli | 1 milyon ABŞ dolları |
| Şirkətlərin cədvəli | Sıfır |

1 milyon ABŞ dolları məbləğində fərq AM-ə tərəf olmayan bir hasilat şirkəti tərəfindən ARDNŞ-a ödənilmiş vəsaiti əks etdirir. Biz bu məbləği həmin əməliyyatla bağlı bank sənədlərinə və müqavilə şərtlərinə istinad etməklə təsdiq etdik.

**Mineral ehtiyatların hasilatı sənayesində çalışan yerli şirkətlərin hasilatındakı dövlət payı**

***Xam neft***

| | |
|---|---|
| Hökumətin cədvəli | Sıfır |
| Şirkətlərin cədvəli | 1 milyon barel |

1 milyon barel həcmində fərq bir yerli hasilat şirkəti tərəfindən yerli bazar qiymətləri ilə ARDNŞ-a satılmış xam neftin AM-in tələblərinə uyğun olmayaraq səhv hesabat edilməsindən yaranmışdır. Bu, kommersiya fəaliyyətidir və AM-in şərtlərinə əsasən hesabat edilməməlidir. Biz bu fərqi bu yerli hasilat şirkəti tərəfindən təqdim olunmuş əlavə təsdiqedici məktub vasitəsilə təsdiq etdik.

Deloitte.

***Qaz***

| | |
|---|---|
| Hökumətin cədvəli | Sıfır |
| Şirkətlərin cədvəli | 6,430 min kub metr |

Yerli şirkətlərin hasil etdiyi 6,430 min kub metr həcmində qaz mineral ehtiyatların hasilatı sahəsində çalışan bir yerli şirkətə aiddir və Hökumətin cədvəlinə xarici şirkətlərin hasilatı üzrə dövlət payı kimi daxil edilmişdir. Yuxarıda "mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin hasilatındakı dövlət payı"na baxın.

**Yerli şirkətlərdən hökumətə digər daxilolmalar**

***Mənfəət vergisi***

| | |
|---|---|
| Hökumətin cədvəli | 46.9 milyard manat |
| Şirkətlərin cədvəli | 43.4 milyard manat |

3.5 milyard manat məbləğində fərq mineral ehtiyatların hasilatı sahəsində çalışan bir yerli şirkət tərəfindən yalnız 2005-ci il üzrə mənfəət vergisinin ödənişinin hesabat edilməsindən yaranmışdır. Biz bu şirkətdən alınan müvafiq bank sənədlərini yoxlamaqla fərqi təsdiq etdik. Buradan belə qənaətə gəldik ki, şirkət 2004-cü il üzrə mənfəət vergisinin 2005-ci il ərzində ödənilmiş hissəsini hesabat etməmişdir.

***Digər vergilər***

| | |
|---|---|
| Hökumətin cədvəli | 400.3 milyard manat |
| Şirkətlərin cədvəli | 400.5 milyard manat |

Şirkətlərin cədvəlinə 0.2 milyard manat məbləğində digər vergilər daxildir ki, bu da yuvarlaqlaşdırma fərqi kimi izah olunur. Bu fərq Şirkətlərin bizə təqdim etdikləri hesabatlarda yuvarlaqlaşdırılmış rəqəmlərin göstərilməsi səbəbindən yaranır.

**Rəy**

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/daxilolmaların və Hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların yoxlamasını apardığımız təqdirdə tələb edilə bilən hər hansı düzəlişlər (əgər olarsa) istisna olmaqla, bu hesabat üzrə yoxlamamıza istinad edərək, bizim rəyimizə görə, 31 dekabr 2005-ci il tarixdə bitən il ərzində qəbul olunmuş ödənişlərin/daxilolmaların cədvəli ilə bağlı Azərbaycan Respublikasının MHŞT Komissiyasının bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış və bütün əhəmiyyətli hallarda düzgün əks olunmuşdur.

Bu hesabat AM-i imzalayan tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur və hesabat AM-də qeyd olunmayan məqsədlər və ya digər tərəflər üçün istifadə edilməməlidir.

Deloitte & Touche.

31 iyul 2006-cı il

## ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ BƏYANNAMƏSİ

**AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ ("MHŞT") BƏYANNAMƏSİ**

31 dekabr 2004-cü il tarixində bitən il üzrə Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") mineral ehtiyatların hasilatı sahəsində fəaliyyət göstərən yerli və xarici şirkətlərdən (birlikdə "Şirkətlər" adlanacaq) aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT Komissiyası, 2 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və 3 saylı Əlavədə göstərilən qeyri-hökumət təşkilatları arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır.

MHŞT Komissiyasının Sədri

# ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN VƏ TƏRƏF OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI

**Anlaşma Memorandumuna tərəf olan şirkətlər**

BP Eksploreyşn (Kaspian Sea) Limited
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("ARDNŞ")
Total E&P Azərbaycan B.V.
ITOÇU Oyl Eksploreyşn (Azərbaycan) Inc.
Statoyl
Turkish Petroleum A.O.
Komonvels Neft və Qaz
Ekson Azərbaycan Limited
KonokoFilips
Amerada Hess (ACG) Limited
Devon Enerci Kaspian Korporeyşn
Lukoyl Oversiz
Şenqli Oyl
Salyan Oyl Limited
Qarasu Əməliyyat Şirkəti
Şell Azərbaycan Eksploreyşn ənd Prodakşn
Middle East Petroleum
Anşad Petrol BM
Şirvan Oyl BM
Azgerneft BM
İnpeks
Şevron Oversiz Petroleum Azərbaycan Limited

**Anlaşma Memorandumuna tərəf olmayan şirkətlər**

Azərbaycan Respublikası Dövlət Neft Fondu
Binəqədi Oyl Əməliyyat Şirkəti
Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ")[1]

[1] ABƏŞ AÇG yatağında əməliyyat aparan şirkətdir. ABƏŞ-in partnyorları BP Eksploreyşn (Kaspian Sea) Limited, Ekson Azərbaycan Limited, Statoyl, İnpeks, ARDNŞ, Devon Enerci Kaspian Korporeyşn, İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnc, Amerada Hess (AÇG) Limited, Turkish Petroleum A.O, Unokal Xəzərdir (Şevron Oversiz Petroleum Azərbaycan Limited).

## ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI

Gənc Hüquqşünaslar Birliyi
İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi
Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Milli Qrupu
Gəncə Kəpəz Bələdiyyəsi
Beynəlxalq Ekoenerji Akademiyası
İctimai Maliyyə Monitorinq Mərkəzi
Vətəndaş Təşəbbüsləri Mərkəzi
Humanitar Tədqiqatlar Mərkəzi
Aqroeco Konsaltinq Mərkəzi
Yaşıllar hərəkatı
İqtisadi Tədqiqatlar Mərkəzi
"Buta" Humanitar Uşaq Fondu
Ekoleks Təşkilatı
"Çevrə" Davamlı İnkişafa Yardım İctimai Birliyi
Neftçilərin Hüquqlarının Müdafiəsi Komitəsi
Multimedia İnformasiya və Texnologiya Mərkəzi
"Ekspert" ekonomik jurnalı
"Bilik" Gəncə
Vətəndaşların əmək hüquqlarının müdafiəsi liqası
Gəncə Uşaq Fondu
Azərbaycan Maarifçi Gənclər Təşkilatı Sabunçu şöbəsi
Demokratik İslahatlar uğrunda Cəmiyyət
Tacirlər və İstehsalçılar Birliyi
"Himayədar"
Vençur layihələri iştirakçıları Assosiasiyası
IHQMB
HVA Regional bölməsi (Gəncə)
İnsan Hüquqları XXI əsr-Azərbaycan Fondu
Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi
Avrasiya Hüquqşünaslar Assosiasiyası
Demokratiya və Qadın Tədqiqatları Mərkəzi
İqtisadi və Sosial İnkişaf Mərkəzi
Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti
Demokratik Seçkilərə Dəstək Mərkəzi İctimai Birliyi
Sosial İqtisadi Araşdırmalar Birliyi
Elmi-Texniki Tərəqqi və Təhsil Fondu
Demokratik Dəyərləri Müdafiə Fondu
Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq
Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İB
Demokratiyanın İnkişafı və Hüquqi Yardım Mərkəzi
Transnəqliyyatın (nəqliyyatın) Kompleks Problemləri İnstitutu
Azad İstehlakçılar Birliyi
"Proqres" İctimai Birliyi, Gəncə
Azərbaycan İnşaat Assosiasiyası
Qadınlar arasında həmrəylik
Azərbaycan Sağlam İnkişaf İctimai Birliyi
Sosial-İqtisadi Hüquqlar üzrə Təlim-Monitorinq Mərkəzi
Yerin dostları / Azərbaycan
"Ümid" Humanitar və Sosial Dayaq Mərkəzi
"Xilaskar" İctimai Birliyi
"Finance" Şəffaf Büdcə İctimai Birliyi (İmişli)
"İnam" Plüralizm Mərkəzi
İqtisadi Texnologiyalar İnstitutu
"Free Person" İnsan Hüquqlarının Müdafiə Cəmiyyəti
Demokratik Təşəbbüslərə Dəstək Mərkəzi

# ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI

Demokratik Seçkilərə Yardım Mərkəzi
Demokratik İslahatlar Mərkəzi
"Əks-səda" Beynəlxalq Jurnalist Tədqiqatları Mərkəzi
"İnkişaf" Gənclərə Hüquqi Yardım İctimai Birliyi
Demokratiya və Qadın Hüquqlarının Himayə Mərkəzi
"Rüzgar" Ekoloji İctimai Birliyi
"İnsan Haqları-2003" İctimai Birliyi
"Qadın Dünyası" İctimai Birliyi
Konstitusiya Fondu
Qafqaz Media Tədqiqatlar Mərkəzi
Hüquq Təşəbbüsü Fondu
Xəzər Universiteti nəzdində Biznes Araşdırmalar Mərkəzi
Crude Accountability
Mediada Vətəndaş Hüquqlarının Müdafiəsi Fondu
"Elektron Seçki" İctimai Birliyi
Vətəndaş Cəmiyyəti Quruculuğuna Yardım Mərkəzi (Regional QHT Ağstafa rayonu)
Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi
Azərbaycan Ekoloji Standartların Monitorinqi Mərkəzi
Sülh və Demokratiya İnstitutu
Eko-Aləm İctimai Birliyi